

Nizami Cəfərov

# "Mənəvi dəyərlərimiz hər şeydən öndə durmalıdır..."

*Azərbaycan mədəniyyətinin potensial inkişafı, milli-mədəni dəyərlərimizin mühafizəsi, ondan hərtərəfli istifadə olunması, bu sahədə beynəlxalq əməkdaşlığa hərtərəfli şərait yaradılması üçün zaman geniş islahatlar aparılmasını tələb edir. Bu isə ilk növbədə mükəmməl qanunlarla tənzimlənməlidir...*

Müsahibimiz Milli Məclisin Mədəniyyət Məsələləri Komissiyasının sədri, filologiya elmləri doktoru, professor Nizami Cəfərovdur.

*- Nizami müəllim, aldığımız məlumata görə yaxın vaxtlarda Mədəniyyət haqqında yeni qanun qəbul ediləcək. Bu nə dərəcədə doğrudur?! Axı bizdə belə bir qanun mövcuddur...*

- Tamamilə doğrudur. Bu qanun 9 ilə yaxındır ki, fəaliyyətdədir. 1998-ci il fevralın 6-da qəbul olunub. Artıq o vaxtdan bizi xeyli müddət ayırır. Nə danmalı, o zaman Azərbaycan mədəniyyəti indiki inkişaf imkanlarına malik deyildi. Yeni müstəqil respublika qurulmuşdu. Mədəniyyətlə bağlı məsələlər arxa planda dururdu. Amma artıq Azərbaycanın müstəqilliyindən 15 il keçir. Bu da istər-istəməz mədəniyyətə ayrılan vəsaitlə bağlı, ölkədə gedən mədəni-ictimai proseslərlə bağlı tələb irəli sürür ki, biz bu qanununu yenidən işləyək...

*- Bir halda ki, qanun var, daha yenisi nəyə lazım?! Həmin qanunda müəyyən dəyişiklik aparmaq düzgün olmazdımı?!*

- Haqlı sualdır. Doğrusu, əvvəllər biz də elə fikirləşirdik. Amma sonra gördük ki, bu qanun Azərbaycan reallıqlarından uzaqdır. Aparılan təhlillərə əsasən bir daha əmin olduq ki, qanunun bir çox müddəaları köhnəlib. Onların müəyyən qismi formal xarakter daşıyır. Mədəniyyət prosesləri ilə o qədər də əlaqədar deyil. Mədəniyyətlə bağlı müəyyən proseslər var ki, o da bu qanunda öz əksini tapmayıb. Odur ki, bu qüsurlara yol verib onları təkrarlamadan işlək qanun qəbul etməyimiz daha məqsədəuyğundur. Mənim fikrimcə, mədəniyyətdə özəlləşdirmə, xüsusi insan maraqları, vətəndaşların fərdi yaradıcılıq imkanlarının genişləndirilməsi və s. bağlı müəyyən müddəalar artırılmaldır.

Bu gün xüsusi mülkiyyət hər yerə, o cümlədən, mədəniyyətə müdaxilə edir. Amma bizim mövcud qanunumuz bu müdaxiləni o qədər də sistemə sala bilmir.

Eyni zamanda bizim milli-mənəvi dəyərlərimizlə bağlı elə məsələlər var ki, onların qorunması da qanunda lazımi səviyyədə əks olunmayıb.

*- Belə çıxır ki, Mədəniyyət haqqında yeni qanunun qəbulu ilə də kifayətlənilməyəcək?!*

- Elədir. Bundan sonra bir sıra sahə qanunları da qəbul olunmalıdır. Odur ki, həmin qanunların əsas müddəaları yeni qanunda mütləq öz əksini tapacaqdır. Sözün açığı, məndə belə bir ideya var ki, mədəniyyətlə bağlı müxtəlif məsələlər, indiyədək qəbul edilmiş sahə qanunları və bundan sonra qəbul edəcəyimiz qanunlar əsasında mədəniyyət məcəlləsi hazırlayaq. Amma görünür Milli Məclis bunun qəbuluna hələ o qədər də hazır deyil. Bununla belə mədəniyyətdə xeyli islahat işləri aparılmalıdır. Möhtərəm nazirimiz Əbülfəs Qarayevin intensiv və məhsuldar fəaliyyəti bu mənada yüksək qiymətləndirilməlidir. Cənab nazir artıq mədəniyyətin bütün sahələri üzrə görüş keçirib. Tarixi abidələrdən tutmuş teatrlara qədər. Yazıçılar Birliyi, televiziya rəhbərləri ilə görüşlər xüsusilə əhəmiyyətlidir. Elə bir sahə qalmayıb ki, Əbülfəs müəllim maraqlanıb öz tövsiyələrini verməsin. Bu da bizim Mədəniyyət Komissiyasındakı işimizə çox kömək edir.

Problemlərin həllində reallıq nəzərə alınmalıdır. Biz, misal üçün, çox dəbdəbəli, deklorativ qanun hazırlaya, müxtəlif ölkələrin artıq təcrübədən çıxmış qanunlarını, belə deyək, köçürə də bilərik. Təbii ki, bu reallıqdan, perspektivdən uzaq olduğu üçün işləməyəcək. Odur ki, biz işlək qanun qəbul etməliyik. Kağızda qalacaq qanun heç kəsə lazım deyil.

*- Bir az da latın qrafikalı əlifbaya keçid, bu cür kitabların nəşri barədə...*

- Biz dil-mədəniyyət prosesindən keçdik, əlifba dəyişdik. Əlbəttə, latın qrafikalı əlifbanın öyrənilməsi o qədər də mürəkkəb proses deyil. Çünki Azərbaycan ziyalılar ölkəsidir. Respublikamızın bütün məktəblərində dil öyrədilir. Ona görə də latın qrafikalı əlifbaya keçid o qədər də ağrılı olmadı. Mən bunu xüsusi qeyd etmək istəyirəm ki, əgər birinci mərhələdə bizim orta məktəblərimiz keçdisə, sonra dövlət orqanları, kütləvi informasiya vasitələri keçdi. Bu keçid məsələnin bir tərəfidir.

Eyni zamanda, bizim on illər boyu yaratdığımız zəngin ədəbiyyat var. Latına keçid təbii ki, çox vacib bir məsələ idi.

Latın qrafikalı əlifbaya keçid o deyil ki, proses getsin, yazı-pozu bununla aparılsın. Həm də yaranmış ən yaxşı nə varsa tədricən latın qrafikasına keçməli idi.

Azərbaycan prezidentinin sərəncamı ilə orta məktəblər ən zəruri ədəbiyyatla təmin olunub. Amma bu proses hələ davam etməlidir. Nəşriyyatlarımız məlum sərəncamdan irəli gələn vəzifələri yerinə yetirməlidirlər. Əslində hər hansı hərəkatın başlanması yalnız dövlət büdcəsi ilə həyata keçirilməməlidir. Bu gərəkli işdə özəl sahələr də öz sözlərini deməlidirlər.

Bu mənada, indiyədək buraxılmış ədəbiyyat gənc nəslin kitaba tələbatını xeyli dərəcədə aradan qaldırdı. Amma tələbat təbii ki, tamam ödənilməyib. Onu da nəzərə almaq lazımdır ki, bizdə mütaliənin səviyyəsi xeyli aşağı düşüb. Rayon kitabxanalarının vəziyyəti acınacaqlıdır. Bu sahədə çalışanların maaşı çox aşağıdır. Yerlərə nə qədər kitab göndərilsə də kitabxanaların yeni ədəbiyyatla təminatı zəifdir...

*- Bunun üzərində ciddi düşünmək gərəkdir...*

- Əlbəttə! Burada dövrün öz tələbi də var. Əvvəllər televiziya bu qədər inkişaf etməmişdi. Kompüter texnologiyası bu dərəcədə yüksək səviyyədə deyildi. Odur ki, bütün diqqət bir zövq, informasiya mənbəyi kimi kitaba yönəlirdi. Amma bu gün kitabın görəcəyi işin bir qismini ayrı texniki vasitələr görür. Ona görə də kitabxanaların gerilməsi anlaşılan bir məsələdir.

*- Bu işdə internetin təsiri də az deyil...*

- Biz indi dünyaya inteqrasiya olunuruq. Zövqlər dəyişir. Deyək ki, bir vaxt mənim oxuduqlarımı bu gün ola bilsin oğlum-qızım oxumasın. Burada məcburiyyət də olmaz. Əsas məsələ odur ki, xalqımızın tarix boyu yaratdıqlarını təqdim edək. Şərait yaradaq ki, bu sərvət əlçatan olsun. İndi nə oxunacaq, nə oxunmayacaq, nədən zövq alınacaq, yeni nəsil nəyi qəbul edəcək, etməyəcək - bu artıq başqa məsələdir. Biz oxucuların zövqünü tərbiyə etməli, milli dəyərlərimizi təbliğ etməli, onlara yiyələnmələrinə

çalışmayılıq. Ortalıqda dəyər olmalıdır. Dünyaya inteqraysiya olunmağımızla bağlı yalnız yaxşı şeylər deyil, dağıdıcı proseslər, modellər, texnologiyalar da meydana çıxır...

*- Bütün bunlar mənəviyyatımızın qorunması üçün bizi daha ayıq-sayıq olmağa sövq edir.*

- Tamamilə haqlısınız. İndi Azərbaycanda şou-biznes o səviyyəyə gəlib çatıb ki, milli dəyərlərimizə qarşı yönələn amillər də qaçılmaz olub. Musiqi, səhnə mədəniyyəti bəzən bayağılaşır. Amma ən böyük nəzarət o deyil ki, nəyisə qadağan edəsən. Gərək bizim klassik musiqimizi də inkişaf etdirək. Teleradiolarımız müxtəlif şoularla yanaşı böyük mədəniyyətimizi, klassik mədəniyyətimizi də təbliğ və təmsil etməkdə məsuliyyət daşıyırlar. Bu mənada, böyük mədəniyyət əsərləri əlçatan olmalıdır ki, o istənilən vaxt yüngül əyləncələrə qarşı yönələ, onun qarşısını ala bilsin.

Bizdə indi elektron kitabxanalar, saytlar açılır. Amma kitabın da öz gözəlliyi var. Bəşəriyyətin min illərdən bəri yaratdığı sərvətə biganə yanaşmaq olmaz. Yəni, kompüter nə qədər inkişaf etsə də Azərbaycanda hələ ki, kitab nəşri dayanmır. Lazımi səviyyədə gedir. Kompüter texnologiyaları cari informasiyaları daha çox əks etdirir. Ədəbi dəyərlər isə hələ ki, kitab şəklində təzahür edir. Odur ki, bu gün kitabın, poliqrafiyanın böhranından danışmaq tezdir. Hələ uzun illər kitablar nəşr olunacaq...

*- Teatr haqqında qanunun qəbulu prosesi nə yerdədir?*

- Biz Mədəniyyət və Turizm Nazirliyi və Teatr Xadimləri İttifaqı ilə qanun layihəsini müzakirə etmiş, ikinci oxunuşu başa çatdırmışıq. Azərbaycan teatrının tarixi zəngin, potensialı böyükdür. Mədəniyyətimizin ən inkişaf etmiş sahəsi olan teatr kollektiv sənətdir. Yazıçıdan başlamış aktyora, tamaşaçıya qədər. Sinqretik bir hadisədir. Bizim televiziya və kino aktyorlarımızın böyük bir hissəsi teatrdan gəlib. Bu mənada, teatr o sahələr üçün də bir məktəbdir. Belə olan halda teatrlarımız niyə böhran keçirir? 28 dövlət teatrı var. Onların müvafiq binaları, yüzlərlə ştatlı işçiləri, aktyoru, texniki heyəti var. Burada teatrın problemləri həll edilməklə yanaşı, müasir teatr da formalaşmalıdır. Biz dövlət teatrlarını saxlamaqla yanaşı özəl teatrların inkişafı üçün də şərait yaratmağa çalışırıq.

Ən ciddi məsələlərdən biri teatrın müdriyyəti - rejissor-aktyor münasibətlərini tənzimləməkdən ibarətdir. Tamaşaların sahibi kim olmalıdır? Rejissormu, ssenari müəllifimi, aktyorlarmı, baş rolun ifaçısımı? Bu məsələlər, mən deyərdim ki, xeyli dərəcədə mübahisəlidir. Əgər birdən baş rolun ifaçısı xəstələnərsə və onu əvəz edən tapılmazsa tamaşa göstərilməlidirmi? Göstərilməsə məsuliyyəti kim daşıyır?! Tamaşadan gələn gəlir onun inkişafı üçün nə dərəcədə sərf olunur?! Teatrları dövlətmi saxlamalıdır? Yoxsa xüsusi mülkiyyət sahiblərimi? Tamaşanın hazırlanması üçün məkanın, teatrın məsuliyyəti nədən ibarətdir?! Prodüsser institutu necə inkişaf etdirilməlidir? Ümumiyyətlə, prodüsser olmaldırmı?! Onun səlahiyyətləri nədən ibarətdir?

Yəni, elə məsələlər var ki, bu münasibətlər həmin qanun layihəsində öz əksni tapır və biz çalışırıq ki, teatrın özünümaliyyələşdirmə imkanları genişlənsin. Teatr nəyi verirsə, nəyi təqdim edirsə ona uyğun da təmin olunsun. Tamaşanın teatra hansı yolla gəlməsi gizli qalmasın. Elə olmasın ki, öz zəif əsərini teatra təqdim edən kəs heç bir məsuliyyət daşımasın. Bütün bunlar qanunda öz əksini tapmalıdır ki, teatr münasibətləri də qaydaya düşsün.

Dediklərmizi bir daha ümumiləşdirərək bildirirəm ki, bu gün də, sabah da biz milli-tarixi dəyərlərimizi qorumalıyıq, dünya mədəniyyəti ilə qarşılıqlı əlaqədə olmalıyıq, mədəniyyətimizi dünyaya çatdırmalıyıq, dünyanın müasir, proqressiv mədəniyyətini qəbul etməliyik, yeni yaradıcılıq imkanlarını genişləndirməliyik və s. və i.a. Bu dövrün tələbidir. Azərbaycan mədəniyyətinin inkişafı qayğısına qalmaq istəyiriksə bütün bu müddəalara əməl etməliyik. Bu yolda ən mükəmməl bələdçimiz mədəniyyətlə bağlı qəbul edəcəyimiz qanun olacaq...

**Elmira Həsənqızı**